XALQ QƏZETİ 30 dekabr 2018-ci il, bazar

# Əziz həmvətənlər, bayramınız mübarək olsun!



***Akif ƏLİZADƏ, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

– Doğma Vətənimiz Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan əziz həmvətənlər!

Çox hörmətli “Xalq qəzeti”nin oxucuları!

Sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edir, sizə həyatda cansağlığı və səadət, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq!

Şərəfli tarixi keçmişə, çoxsaylı ziyalılara, tarix boyu əldə etdiyi möhtəşəm elm, sənət və mədəniyyət uğurlarına, zəngin təbiətə, əlverişli geopolitik mövqeyə, müxtəlif təbii resurslara, intellektual insan kapitalına malik Azərbaycan müasir dünyada özünəməxsus yeri, mövqeyi olan güclü dövlətdir və dünyanın hansı güşəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qürur mənbəyidir. Azərbaycan məfhumu dünya azərbaycanlılarını vahid ideya, məqsəd və məram ətrafında birləşdirə bilən müqəddəs, ali dəyərdir! Təsadüfi deyildir ki, dünya azərbaycanlılarının həmrəyliyinin əsasında dayanan ümummilli ideya məhz azərbaycançılıq ideologiyasıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan bu ideologiyanın mənəvi inteqrativ potensialı sayəsində dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar müqəddəs Vətən məfkurəsi ətrafında sıx birləşmiş, onlarda xalqın, millətin taleyüklü məsələlərinə vahid mövqedən münasibət formalaşmışdır. Artıq bu gün dünyanın istənilən yerində yaşayan azərbaycanlıların mənafeyini müdafiə edən, onların vahid ideya ətrafında birləşməsində maraqlı olan müstəqil, güclü Azərbaycan Respublikası vardır!

Otuz ilə yaxın müstəqillik yolu keçmiş Azərbaycan hazırda möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymaqdadır.

Bir göz qırpımında ötüb keçən 2018-ci il artıq tarixə qovuşur. Bu il də müstəqillik tariximizdə öz layiqli yerini tutacaq, rastlaşdığımız bütün çətinliklərə baxmayaraq, xalqımızın uğur salnaməsinə yazılacaq. Bu salnaməni yazanlardan biri də alimlərdir. Məhz onların yuxusuz gecələrinin axtarışları, kəşfləri, ixtiraları həyat adlanan “mexanizmi” hərəkətə gətirir və tərəqqini təmin edir.

Yola saldığımız 2018-ci ili Azərbaycan elmi üçün də uğurlu hesab etmək olar. Bu il, hər şeydən əvvəl, Azərbaycan Milli Elmlər Akademiyası üçün islahatlarla müşayiət olunan yeni yüksəliş mərhələsi kimi yadda qaldı. AMEA-nın intellektual potensialının inkişafı, onların daha geniş miqyasda elmi və elmi-təşkilati fəaliyyətə cəlb edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirildi. Müasir şəraitdə elmi işin daha effektiv həyata keçirilməsi üçün elmi potensialla iş sahəsində yeni idarəçilik mexanizmlərinin tətbiqini təmin edən layihələr işlənib hazırlandı. İntellektual gəncliyi ölkənin ümumi inkişaf tempinə uyğunlaşdırmaq, elmimizin gələcək taleyinin etibarlı əllərdə qorunmasını təmin etmək məqsədi ilə gənc alimlərlə bağlı bir sıra addımlar atıldı.

Bizim hədəfimiz Azərbaycan aliminin dünyaya müasir elmi informasiya daşıyıcısı kimi inteqrasiyasına nail olmaqdır. Bu məqsəd xaricdə və Azərbaycanda yaşayan hər bir azərbaycanlı alim və ziyalı qarşısında böyük məsuliyyət qoyur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan elm sahəsində də regionun lider dövlətinə çevrilməlidir. İnanırıq ki, qarşıya qoyulan məqsəd və ideyalar tezliklə öz gerçək nəticələrini verəcəkdir.

Azərbaycan elmi dünya elminin bir parçasıdır. Müasir zamanda alimlərimiz öz səylərini birləşdirərək xalqımıza, dövlətimizə xidmət edirlər. Dünyada isə iqtisadi böhran davam edir, münaqişələr, təbii fəlakətlər hər gün, hər saat kimlərinsə ömrünə son qoyur. Bu baxımdan Azərbaycan sanki fırtınalı dəryada möhtəşəm bir sabitlik adası kimi, istisna olaraq qalmaqdadır. Qarşıdan gələn 2019-cu ilin iyun ayında bu xəttin əsasını qoymuş – xalqımızın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə ilk gəlişindən əlli il ötür. Əlli illik sosial-iqtisadi inkişafın nəticəsidir ki, bu gün Azərbaycan regionun aparıcı dövlətidir.

Təbiidir ki, gələcəyə aparan sosial-iqtisadi inkişafın əsasında ən başlıcası intellekt dayanır. Sevindirici haldır ki, alimlərimizin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Buna misal kimi onu əlavə etmək istərdim ki, aprel ayının 11-də keçirilmiş prezident seçkilərinə cəmi bir gün qalmış dövlət başçısı cənab İlham Əliyev hər il mart ayının 27-ni Azərbaycanda “Elm günü” olaraq qeyd olunması haqqında sərəncam imzaladı. Azərbaycan alimləri bu sərəncamı dövlət başçısının elmə, elm adamlarına göstərilən qayğının təcəssümü kimi qiymətləndirir, möhtərəm Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşərək, bundan sonra da cəmiyyətimizin tərəqqisi üçün ön sıralarda gedəcəklərini ifadə edirlər.

Mən inanır və ümid edirəm ki, qarşıdan gələn 2019-cu ildə Azərbaycanın elmi potensialı bir tərəfdən dövlətin günü-gündən elmə artan diqqət və qayğısı, digər tərəfdən də özünün daxili intellektual səfərbərliyi sayəsində yeni dövrün tələbləri baxımından daha mütəşəkkil və sistemli xarakter alacaq, respublikanın sosial-iqtisadi və mədəni-mənəvi inkişafında bundan sonra da yaxından iştirak edəcək, dünya elminə öz layiqli töhfələrini verəcəkdir.

Əziz həmvətənlər!

Bir daha sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir və sizə Vətənimiz Azərbaycan naminə atdığınız bütün addımlarda uğurlar arzulayırıq!

Bayramlarınız mübarək olsun!